**Həmişə Suşadan söhbət düşəndə istər-istəməz ulu öndərin bu fikirlərini xatırlayıram: “Şuşa Azərbaycanın incisi, Qarabağın gözüdür, bizim qədim abidələrimiz qədim dövlətçiliyimizin şəhəridir. Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, Vətənini, millətini sevən hər bir vətəndaş üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir”. Bu gün hər bir azərbaycanlı üçün Şuşa, sözün əsl mənasında, ziyarətgaha çevrilmişdir.**




# “Şuşa ili” tədbirləri: ölkəmizdə və dünyada




Təsadüfi deyil ki, Prezident İlham Əliyev 2022-ci ili “Şuşa ili” elan etmişdir. Nazirlər Kabineti bununla bağlı hazırladığı Tədbirlər Planına əsasən il boyu tədbirlərin davam etdirilməsi nəzərdə tutulurdu. Artıq təkcə Azərbaycanda deyil, dünyanın bir sıra ölkələrində də “Şuşa ili” tədbirləri davam edir.

Məlumat üçün bildirək ki, bu il Şuşanın 270 illiyinin qeyd olunacağı tarix kimi əlamətdardır. Həm də ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu Vaqif məqbərəsinin ucaldılmasının 40-cı ildönümüdür.

Nazirlər Kabinetinin təsdiq etdiyi “Şuşa ili” ilə bağlı Tədbirlər Planına əsasən, Azərbaycanın mədəniyyət paytaxtında genişmiqyaslı, möhtəşəm tədbirlər təşkil edilməyə başlanılıb. Azərbaycan tarixinin, elm və mədəniyyətinin təbliğinin önə çəkildiyi həmin tədbirlərdə xarici ölkələrdən gələn qonaqlara ölkəmizin inkişafı, azad edilmiş ərazilərdə görülən işlər barədə ətraflı məlumat verilir.

Bakıda da “Şuşa ili” tədbirləri davamlı olaraq təşkil edilir. Elə bir mədəniyyət ocağı olmayıb ki, bununla bağlı maraqlı tədbir keçirməsin.

Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır. Bu şəhərin mədəni həyatı rəngarəng və zəngin olub. Onun torpağında, səmasında bu xalqın ruhu yaşayır. Şəhər yenidən tikilir. Tarixi, mədəni və dini abidələri sürətlə bərpa edilir. Mədəniyyət müəssisələri, təhsil və səhiyyə ocaqları tədricən fəaliyyətini bərpa edir. Bunlar çox gözəldir. Bu gün Şuşaya açılan avtobus marşrutları Bakı ilə Şuşa arasında körpü yaratmışdır.

Regionlarımızda da “Şuşa ili” ilə bağlı keçirilən tədbirlər böyük maraq doğurmuşdur. Bərdədə, Ağcabədidə, İmişlidə, Beyləqanda, Biləsuvar və Masallıda belə maraqlı tədbirlər keçirilmişdir.

Xarici ölkələrdə bununla bağlı keçirilən tədbirlər də maraqla qarşılanır. Tədbirlər planında “Şuşa ili”nin beynəlxalq səviyyədə təbliği ilə əlaqədar xarici ölkələrdə, beynəlxalq təşkilatların mənzil-qərargahlarında elmi konfrans və simpoziumların keçirilməsi, eləcə də, təbliğat xarakterli digər işlərin görülməsi prioritet kimi müəyyən edilib.

Məlum olduğu kimi, Şuşa şəhəri 2023-cü ildə Türk Dünyasının Mədəniyyət paytaxtı elan edilmişdir.

Bəli, Şuşa bu günlər öz doğmaları ilə birgə nəfəs alır, gözəlləşir, yeniləşir, müasirləşir və öz gələcək taleyinin sahibinə çevrilir.

**M.MÜKƏRRƏMOĞLU, “Xalq qəzeti”**